Şəfafflıq Azərbaycan

# PRESS RELİZ

**Yeni indeksin göstəricilərinə görə hər 10 inkişaf etmiş ölkədən 9-nun təcili olaraq korrupsiya ilə mübarizə aparmaq üçün praktikiköməyə ehtiyacı var.**

*Transparency İnternational təşklatı tərəfindən hazırlanan 2003-cü ilin Korrupsiya Ehtimalı Göstərisi 133 ölkədə korruösiyanın səviyyəsi haqqında məlumat verir. 2003-cü ilin göstəricisinə görə hər 10 ölkədən 7-si 10 ballı cədvələ görə 5-dən aşağı bal toplayıb. Bununla yanaşı hər 10 inkişaf etmiş ölkədən 5-i 10 ballı cədvələ görə 3 baldan aşağı göstəriciyə malikdir.*

"Varlı ölkələr korrupsiya ilə mübarizə aparmaq üçün siyasi meyl göstərən inkişaf etməkdə olan ölkələrə praktiki dəstək verməlidirlər"- deyə Transparency İntermnational təşkilatının sədri Piter Eygen Oktybarın 7-də Londonda yeni Korrupsiya Göstərisinin təqdimatında qeyd etmişdir. Öz nitqində Eygen inkişaf etmiş hər 10 ölkədən 9-nun ən təmiz göstərici sayılan 10 bal üzərindən 5 baldan aşağı göstərisiyə malik olduğunu vurğulayıb. O, bu ölkələrin nəticəyə yönəlmiş korrupsiya ilə mübarizə proqramları hazırlamalı olduqlarını deyərək, bu ölkələrin milli anti-korrupsiya strategiyalarının ehtiyaclarını qarşılamaq üçün təcili praktiki köməyə ehtiyac duyduqlarını söyləyib.

Korrupsiya Banqladeş, Nigeriya, Hayiti, Paraqvay, Mayanmar, Tacikistan, Gürcüstan, Kamerun, Azərbaycan, Anqola, Keniya və İndoneziya yeni indeksdə 2-dən aşağı bal toplayaraq korrupsiyanın yüksək göstəriciyə malik olduğu ölkələr sırasına aiddir. 9-dan yuxarı bal toplayaraq korrupsiyanın ən aşağı həddə olduğu ölkələr arasına isə Finlandiya, İslandiya, Danimarka, Yeni Zelandiya, Sinqapur və İsveç daxildir. Ötən illərin göstərciləri ilə nisbətdə yaxşılığa doğru irəliləyən dövlətlər arasında isə Avstriya, Belçika, Kolumbiya,

Fransa, Almaniya. İrlandiya, Malaziya, Norveç və Tunisə göstərmək olar. Göstricilərin müqayisəsinə görə pis yöndə irəliləyən dövlətlər siyahısına isə Argentina, Belarus, Çili, Kanada, İsrail, Luksemburq, Polşa, ABŞ və Zimbabveni göstərmək olar.

Bu ilin Korrupsiya Göstəricisi bir daha göstərir ki, korrupsiyanın səviyyəsi təkcə kasıb olkələrdə deyil, eləcə də İtaliya və Yunanıstan kimi Avropa ölkələrində, o cümlədən zəngin neft ehtiyatlarına malik Nigeriya, Anqola, Azərbaycan, İndoneziya, Qazaxstan, Liviya, Venesuela və İraqda da narahat olacaq şəkildə yüksəkdir.

2003-cü ilin İyulunda dünyanın 48 ölkəsində keçirilən ümumi sorğunun nəticələrin görə, Qlobal Korrupsiya Barometrində siyasi partiyalar, məhkəmələr və polis islahatlara ən çox ehtiyac duyan üç sahə olaraq qeyd olunub.

Korrupsiya Göstəricisi yerli və xarici iş adamlarının, tədqiqatçı alimlərin və risk analistlərinin hazırladıqları şərhlərə əsasən hazırlanıb. Bu ilin göstəricisi 13 müstəqil institut tərəfindən keçirilən 17 müxtəlif sorğu əsasında hazırlanıb və buraya ancaq bu sorğulardan ən azı 3-nün keçirildiyi 133 ölkə daxildir.

Şəfafflıq Azərbaycan

e-mail : transpaz@azeronline.com
http//transparency-az.org